# QADIN TƏPƏRİ, ANA HÜNƏRİ...

Həyatın əjdaha ağzından balalarını salamat keçirmək üçün analar nələr çəkir, analar hansı əzablara, əziyyətlərə qatlaşır... bunu təsəvvür etmək heç də çətin deyil, çünki hər birimiz analarımızın bizim üçün çəkdiyi əziyyətləri gözlərimizin önünə gətirə bilərik. Ancaq burada da fərqlənən həyatın əzab rənglərini daha tünd göstərən dövr və zaman məsələsi var.

Yazıçı Fatma Həsənqızının "Acılı-şirinli günlər" sənədli romanında Nəsibə ananın tale yoluna işıq tutan bir neçə hekayət var ki, bunların üstündən sükutla keçmək olmur. Elə bil ki, həyatın ağrı və acılarını yaşamış olan bir ananın ruhu sətirbəsətir yazı boyu bizi izləyir. Axı necə ola bilər ki, müharibənin fəsadları kimi törənmiş olan aclıq, səfalət, xəstəlik, köməksizlik kimi bəlalara qarşı təkbaşına çarpışan bir ananın həyat yolundan onun əzmkarlığının göstəricisi olan məqamları yazıya gətirməyək və bir ana örnəyi olaraq yeni nəsillərə tanıtmayaq.

Şəddat Cəfərovun mənsub olduğu nəslin tale yolu dəfələrlə qeyd-etdiyimiz kimi şair və yazıçıların, publisistlərin, jurnalistlərin həmişə diqqətində olub. Əlbəttə, bunun birinci səbəbi dövrümüzün görkəmli poliqrafiya alimi olan Şəddat Cəfərovun özünün cəmiyyətdə fərqli bir obraz kimi nüfuz sahibi olması da, xüsusi əhəmiyyət kəsb edir. Ədəbi-bədii söz ustaları ədəbiyyata psixoloji tədqiqat sahəsi kimi yanaşan sənətkarlar Şəddat Cəfərovu yetirən mühiti öyrənməklə əslində cəmiyyətin həyatında mühüm əhəmiyyət kəsb edən məqamları diqqətə çəkirlər. Bu necə ailə olub, bu nəslin kökü hardan gəlib, ata-baba yolu necə qorunub, ailənin mənəvi sağlamlığının keşiyini çəkən ananın qeyrət, hünər və təpərlə həyatın çətinliklərinə dözüm göstərərək övladlarını işıqlığa çıxartması insan aliliyinin mənzərələri kimi sənətkarları cəlb edir. Elşad Səfərli poemasında, Flora Xəlilzadə ədəbi-publisistik essesində, İsaq Əmənullayev monaqrafiyasında və eləcə də həmişə diqqətimizdə olan Sevda Əlibəyli "İlk poliqrafçı alim" əsərində Şəddat Cəfərovun möhtəşəm obrazını yaradarkən onu böyüdən mühiti də diqqətdən qaçırmayıblar. Amma Şəddat müəllimin həyat yolunu yazanların arasında tanınmış yazıçı Fatma Həsənqızının "Acılı-şirinli günlər" sənədli romanı bədii tutumuna görə diqqəti xüsusilə çəkir. Adlarını sadaladığımız müəlliflərin hər biri Şəddat Cəfərov obrazının özünə və onun mənsub olduğu ailənin həyat yoluna müxtəlif tərəflərdən yanaşıblar. Fatma Həsənqızı isə daha çox bədii yanaşma ilə bu ailəni daha ağrılı keçən ömür yolunda lövhələr yaradır ki, bu löhvələrdə də biz sözün həqiqi mənasında insan iztirablarının əsil mənzərəsini görürük.

Şəddat Cəfərov haqqında yazan müəlliflərin əksəriyyəti otuzuncu illərin represiya tufanlarının qəddar obrazı kimi Kəlbini mənfur təbiətinə uyğun təlqin edir. Onun adının üstündən sükutla keçmirlər. Bu yöndə Fatma Həsənqızı da tarixə sadiq qalan müəllif kimi istisna deyil. O da əsərində Kəlbini yada salır. Kəlbinin təbiətindəki qeyri-insani motivləri bəzən əhatəli, bəzən isə kiçik bir cizgi ilə diqqətə çəkir. Amma elə sərrast, elə dəqiq münasibət bildirir ki, o kiçik cizgi ilə də Kəlbi yaddaşda qalır, sanki insanlara görk üçün özünün murdar və mənfur sifəti ilə dalğalanan həyat dənizində birdən üzə çıxır və birdən də batır.

İkinci Cahan savaşı başlayanda artıq Kəlbinin qılıncı korşalmışdı, kütəlmişdi: "Nəsibə dörd balasını da yanına alıb çəkinə-çəkinə, utana-utana, hətta keçmişdə çəkdiyi əzab-əziyyətlərin təkrar baş verə bilməsi qorxusundan ehtiyat edə-edə Gərmətük kəndinə gəldi.

Artıq kənd əvvəlki kənd deyildi. Müharibə hamının başını qatmışdı. Camaat Kəlbinin zülmündən çoxdan qurtulmuşdu. Kəlbi işsiz idi. Deyilənə görə avaralanırdı". Bəli, həyat zamanın təbiətindən gələn qəddarlığa güvənərək insanlığa qarşı amansızlıq göstərənin özünü də amansızlıqla cəzalandırır. Şəddat müəllimin mənsub olduğu ailənin tale yoluna işıq tutan əsərlərdən bildiyimiz odur ki, Kəlbinin bütün ixtiyarı əlindən alınır, gözdən salınır. Kənddə heç kim ona salam vermir, heç bir məclisdə yeri olmur. Axırda da içkiyə qurşanır, yiyəsiz, sahibsiz it həyatı sürməyə başlayır. Lap axırda da bir çuxura düşərək insanların nifrətli baxışları altında dünyasını dəyişir. Kəlbinin bu cür yaşadığı həyatın özünə layiq cəza ilə dünyasını dəyişməsi bu gün də Lənkəranın Gərmətük kəndində keçmişi az-çox bilən insanların dilində xatırlanır. Onu lənətlə damğalayır, adını ikrahla çəkirlər. Amma bütün bunların hamısının əvəzində Fatma Həsənqızı Kəlbinin ünvanına işlətdiyi "avaralanırdı" sözü bizə hər şeyi deyir. Onun həyatını insanlar ibrət üçün xatırlayırlarsa, bunda Fatma Həsənqızının əsərinin də müəyyən rolu və təsiri var. O, bir sənətkar kimi Nəsibə ananın obrazını bütün dolğunluğu ilə göstərmək üçün bu ailəyə zülm edən insanın sonluğunu beləcə diqqətə çəkir.

Əsərdən aldığımız təəssürat əsasında Nəsibə ananı nə qədər mətin, qoçaq və cəsarətli görsək də, eyni zamanda onu abırlı, həyalı, ismətli bir qadın, övladlarının hər cür əziyyətinə qatlaşmağı bacaran fədakar bir ana kimi görürük. Ər müharibədədir. Əli iş tuta bilməyən dörd uşaqla Nəsibə ana Bakıda neyləyə bilərdi. Dövlət az-çox əsgər ailələrinə qayğı göstərmək istəsə də, bu təsiredici deyildi. Ona görə də Nəsibə ana əri müharibəyə gedəndən sonra kəndə qayıdır. Amma yazıçının qeyd etdiyi kimi qorxa-qorxa qayıdır. Onun daxili aləmindən acı küləklər keçir. Çünki kənd onun yaddaşında 30-cu illərin qəddarlığı ilə qalıb. Müəllif hekayəni elə "Kənddə" adlandırır. Amma bu hekayədəki kənd 30-cu illərdəki kənd deyildi. Deyəsən kəndin insanlıq siması yaxşılığa tərəf xeyli dəyişmişdi: "Əbülfəz bacısı qızı Nəsibənin kəndə qayıtdığını eşitcək dəhlizə çıxdı:-Çox ağıllı iş görüb gəlmisən, Nəsibə. Kömək edərik, hər şey yaxşı olar.

Nəsibə balaları ilə birgə qaynıgildə bir neçə ay yaşadı. "El-elə sığar, ev-evə sığmaz" atalar məsəlini xatırlayaraq, dayısı Əbülfəz kişiyə dedi:-Dayı, həyətimizdə hələlik bir koma tikməkdə mənə kömək elə. Mən öz yurdumuzun çırağını yandırmalıyam. İndi şumun, əkinin vaxtıdır. Mən gecə-gündüz işləyib, həyəti əkməliyəm. Kolxoz işinə də gedəcəyəm.

-Nə deyirəm, ay bacı qızı. Günü sabahdan meşədən ağac gətirib bir koma qaraldarıq, heç darıxma. Sonrasına baxarıq. Allah kərimdir, - dayısının bu sözlərindən Nəsibə sevindi, ürəyindəki dərd-sər bir qədər yüngülləşdi. Nəsibə kəndə yığışdığı günün səhəri kolxoz idarəsinə, sədrin yanına getdi. Əbülfəz kişiylə köməkləşib yazdığı ərizəni sədrə verdi:-Xahiş edirəm, məni kolxoza qəbul eləyəsiniz, -desə də, Nəsibə bərk həyəcan keçirirdi. Bundan bir neçə il qabaq o, kənddə namərd adamların əlindən çox çəkmişdi. Nəsibəyə elə gəldi ki, sədr keçmişləri yada salacaq və onun xahişini rədd edəcək. Ancaq elə olmadı, bu sədr insanpərvər bir adam idi. Müharibənin belə günlərində kolxoza işlək qüvvələr həmişəkindən çox lazım idi.

Sədr, Nəsibənin zəif və bir qədər solğun üzünə baxıb dedi:-Nəsibə bacı, səni kolxoza götürürəm. Ancaq gör neçə ildir kənddən ayrılmısan, təsərrüfat işlərindən uzaq düşmüsən, yəqin ki, kənd adamına məxsus bəzi vərdişləri də yadırğamısan. Qorxuram, gücün çatmaya, öyrəşə bilməyəsən. Sənə hansı işi tapşırım ki, öhdəsindən gələsən? - Sədrin sualı Nəsibəni karıxdırmadı, aydın və qətiyyətli cavab verdi: -Cansız olmağıma baxma, nə iş olur-olsun öhdəsindən gələrəm. Mən zəhmətə qatlaşmaqdan heç vaxt çəkinməmişəm. Ən əsası isə, yoldaş sədr, dörd balam var. Bəs işləməsəm, onları kim saxlayar?

Nəsibənin bu sözlərindən sədr bir qədər kövrəldi, daha bu mövzuda söhbəti uzatmağa lüzum görmədi. Elə birbaşa mətləbə keçdi:-Qızım, lap yaxşı, çətinlikdən qorxmamağın ürəyimi dağa döndərdi, qətiyyətin məni sevindirdi. İnşallah, işinlə də kollektivimizdə seçilərsən, hörmətin birə-min artar. Çəltikçiliklə necə, məşğul ola bilərsənmi?". Bu kiçik dialoqların yaratdığı mənzərə göstərir ki, müharibə rejimin təbiətinə təsir göstərib. 30-cu illərin qəddarları səhnədən çəkilib. İndi onların yerini insanlığı uca tutanlar, müharibənin nə demək olduğunu bilənlər, insanları müharibə fəlakətindən salamat keçirmək istəyənlər iş başına gəlib. Gərmətük kəndindəki yeni kolxoz sədri də belələrindən biridir. Nəsibə ana onun danışığında həyat işığı görür. Onun balalarını böyüdə biləcəyinə ümidi yaranır.

Hələ bir qədər əvvələ də qayıtmaq olar. Nəsibə ananın təpəri və qeyrəti haqqında nəyi isə demək istəyiriksə, onun əməli həyatını, xarakterini düşüncəmizdə canlandırmalıyıq. Dayısı ona yer versə də, kömək etmək istəsə də, o, ərinin ata-baba yurdunda işıq yandırmaq qərarına gəlir. Bu, əslində, bir insanın mənəvi böyüklüyünün təsdiqidir. O təkcə ana deyil, həm də həyata qarşı mübarizədə amansızlığa qarşı dözümdə kişi qeyrəti bir simadır. Əgər aciz olsaydı heç ərinin ata-baba ruhunda nəslin çırağını yandırmağı məqsəd eləməzdi. Əslində onun daxili təpəri varlığını səfərbər edir və bu məqsədə doğru inamla yön tutmasına təsir göstərir.

Sədr Nəsibə ananı çəltik becərmə işinə göndərmək istəyəndə o nə qədər sevinir, çünki bu işi dədə-baba işi hesab edir. Sədrin Çəltik becərə bilərsənmi? - sualına qətiyyətlə cavab verir: "- Əlbəttə, - Nəsibə lap sevincək cavab verdi. - Bu mənim ata-baba peşəm deyilmi?

-O vaxt sizin evləri sökdülər, bəs harada yaşayacaqsınız?

-Elə öz həyətimizdə. Hələlik dayım bir koma tikməkdə mənə kömək edər. O komada yaşayarıq. Sonrasına baxarıq.

-Lap yaxşı. Günü sabahdan çəltikçilik briqadasında işə başlayarsan. Sonra ev tikməkdə kolxoz da sizə kömək edər.

-Sağ ol, yoldaş sədr. Çox sağ ol, - deyə Nəsibə öz təşəkkürünü bildirdi.

-Nəsibə bacı, əsgər ailələrinə kömək etmək bizim borcumuzdur. Özü də sizin ailədə gələcəyin üç əsgəri böyüyür.

-Allah balalarını saxlasın, - deyib Nəsibə idarədən çıxıb düz öz həyətlərinə gəldi". İnsanın varlığında ümid işığı yananda o, ikiqat güc kəsb edir. Özünü mətin, dözümlü, gücünü tükənməz hesab edir. Elə bu hisslərlə də evə qayıdanda artıq dayısının iş başında olduğunu görür, onun evi tikilirdi, evi qurulurdu. Qaynatasının, ərinin bir zaman dədə-baba həyətində yaratdıqları saray kimi evin xarabalıqları üzərində bir koma qaralansa da, o komada işıq yanacaqdı. Nəslin yeni övladları böyüyəcəkdi. Oğulları kənd içində, camaat arasında alnı açıq, qürurlu gəzəcəkdilər, çünki özlərinin doğma yurdlarında böyüyəcəkdilər.

Yeni evin - komada olsa inşası yeni həyatın şirinliyindən xəbər verirdi. Nəsibə ana hətta ehtiyac olmasa da, onun övladları üçün qurulan evin inşaasından qıraqda qalmaq istəmir. Öz əlinin zəhmətini öz komasında çiçəkləyən görmək istəyir: "Nəsibənin dayısı Əbülfəz bir neçə nəfərlə artıq köhnə evin yerində bir gözdən ibarət koma tikməyə başlamışdılar. Nəsibə də əl-qolunu çırmaladı. O gah torpaq, gah saman daşıyır. Gah da soyuq havada ayaqyalın palçıq tapdalamaqla kişilərə kömək edirdi. On dörd yaşlı Xudadat, dörd yaşlı Ağadat da gücü çatan işlərdə anasına kömək edirdilər. Balaca Suğra və üç yaşlı Şəddat sanki vəziyyətin nə yerdə olduğunu öz uşaq ağılları ilə dərk edirdilər. Şəddat da balaca vedrəsinə ovucları ilə torpaq doldurub hıqqana-hıqqana gətirir, torpaq qalağının ətrafına boşaldırdı. Bəzən də su camını doldurub, anasının tapdaladığı palçığın üstünə tökürdü". Hadisələrin gedişatı o qədər təəssirli və bu günün oxucusunda da kövrəldici bir ovqat yaradır ki, az qala hər bir məqamı diqqətdə saxlamaq, münasibət bildirmək istəyirsən. Nəsibənin övladları üçün ev quran, koma yapan adamları qonaq etmək, onlara bir tikə çörək vermək ehtiyacının özünü göstərməsi də çox təəssirlidir. Amma bunun da çarəsi tapılır. Elə birinci gün çaydan balıq tutulur. İməclik edənlər naharı belə yola salırlar. Burada biz Azərbaycan təbiətinin səxavətini də görürük. Yəni ehtiyyac içərisində olan bir ailə çaya gedir və ordan balıq tutur. Bu sözün həqiqi mənasında bir Allah ruzisidir. Bəlkə də, bunun özü də Əlamətdar bir hadisədir. Yəni həyatın daha bir ümumi ahənglə axara düşəcəyinə işarədir.

Kənddə həyatın belə ahəngə düşməsi uşaqların da əl-qolunu açır. İndi Xudadat da anaya kömək edir. Ağadat da ailəyə kömək etməkdən qalmır. İndi Suğra və Şəddat da kiçik olsalar da, ümumi qayğı ilə əhatə oluna bilirlər.

Beləcə kənddə ailənin yeni həyatı bir ananın təpəri, hünəri ilə axara düşür. İndi o daha çox ümidlidir ki, övladlarını müharibə adlı əjdahanın ağzından keçirə biləcək. Fatma Həsənqızının "Acılı-şirinli günlər" sənədli romanından daha bir parçanın kədər ovqatını ümid işığında, inam işığında təəssüratımızdan keçirdik, yaddaşımıza gətirdik. Ötüb keçən həyatın hər parçası örnəkdir. Gələcəyi daha dürüst, daha aydın görmək üçün bələdçidir. Bu ailədə gələcəyin məşhur naşiri, böyük ziyalısı boy atırdı. Bütün bunlar onun həyatında ömür universitetinin ilk pillələri idi.

*Əli Rza XƏLƏFLİ,*
*Ceyhun ZALLI*
*27.04.2021*